AZƏRBAYCAN RESPUBLIKASININ
AUDITORLAR PALATASININ ŞURASININ
QƏRARI

Bakı şəhəri **№333/4** **11 avqust 2021-ci il**

Mühasibat uçotu və audit sahəsində ali təhsil müəssisələrində tədris proqramlarının yeni dövrün çağırışları nəzərə alınmaqla təkmilləşdirilməsi barədə

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyanın (2021-2030-cu illər)" V.4-cü "Rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətləri" bölməsinin və Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.15-ci "Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi" bəndinə dair plan-proqramın 1-ci "Mühasibat uçotu və audit sahəsində ali təhsil müəssisələrində tədris proqramlarının yeni dövrün çağırışları nəzərə alınmaqla təkmilləşdirilməsi" bəndinin icrasını təmin etmək məqsədilə Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinin rəisi Q.Əhmədovun məruzəsini dinləyərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Mühasibat uçotu və audit sahəsində ali təhsil müəssisələrində tədris proqramlarının yeni dövrün çağırışları nəzərə alınmaqla təkmilləşdirilməsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsinə dair arayış nəzərə alınsın (əlavə olunur).
2. Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, mühasibat uçotu və audit sahəsində ali təhsil müəssisələrində tədris proqramlarının yeni dövrün çağırışları nəzərə alınmaqla təkmilləşdirilməsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsini təmin etsinlər.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) və Auditin hüquqi təminzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinə (E.İbrahimov) tapşırılsın ki, 2021-2022-ci illər üzrə Auditorlar Palatasının peşəkar mütəxəssisləri tərəfindən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə razılaşdırılmaqla yeni dövrün çağırışları nəzərə alınmaqla "Maliyyə" və "Mühasibat uçotu və audit" ixtisasları üzrə təhsil alan bakalavr, magistr və dissertantlar üçün "Cinayət yolu ilə əladə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə", "Kölgə iqtisadiyyatına qarşı mübarizə", "Audit sferasında şəxsi kabinet sistemi barədə mühazirələrin təşkili (interaktiv şəkildə)" mövzularında mühazirələrin keçirilməsini təmin etsinlər.
4. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**